https://doi.org/10.59849/3006-1342.2025.2.56
UOT 94

*Gülər İlham qızı Əjdərzadə*
*Mingəçevir Dövlət Universiteti Humanitar fənnlər kafedrası*
*Müəllim,*
*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına*
*Tarix və Etnologiya İnstitutu*
*Dissertant*
*E-mail: gular.ajdarzada@mdu.edu.az*
*https://orcid.org/0000-0002-6992-6325*

# BORÇALININ SİYASİ TARİXİ (E.Ə. VIII-VII ƏSRLƏRDƏN – B.E. XVII-XVIII ƏSRLƏRİ ÇƏRÇİVƏSİNDƏ)

*Borçalı bölgəsi Cənubi Qafqazın mühüm etno-siyasi mərkəzlərindən biri kimi qədim dövrlərdən etibarən siyasi rəqabətlərin və mübarizələrin kəsişmə nöqtəsində yerləşmişdir. Antik mənbələrə görə, bu ərazi ilkin dövrlərdə iber və mosxların təsiri altında olmuş, sonrakı əsrlərdə kimmer, iskit və sak tayfalarının yürüşləri nəticəsində türkdilli əhalinin məskunlaşdığı bir bölgəyə çevrilmişdir. Əhəməni imperiyası, Makedoniyalı İsgəndərin yürüşləri və Sasani-Bizans müharibələri dövründə Borçalı tez-tez nüfuz dairəsi dəyişən, lakin strateji əhəmiyyətini itirməyən bir coğrafi vahid olmuşdur.*

*VII əsrdən başlayaraq bölgə Ərəb xilafətinin nəzarətinə keçmiş, islam dininin yayılması üçün zəmin formalaşdırmışdır. VIII əsrin sonlarından etibarən formalaşan Tiflis əmirliyi daxilində Borçalı, Cəfərilər, Sacilər və Şəddadilər kimi müsəlman sülalələrinin idarəsində olmuş, bu da bölgədə türk-müsəlman varlığının möhkəmlənməsinə səbəb olmuşdur. Səlcuq dövründə Borçalı mühüm hərbi-strateji məkan olaraq türklərin Qafqazda möhkəmlənməsində əhəmiyyətli rol oynamış, lakin XII əsrin əvvəllərində Gürcü çarlarının hücumlarına məruz qalmışdır.*

*Sonrakı dövrlərdə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin apardığı hərbi kampaniyalar nəticəsində Borçalı bölgəsində türklərin siyasi və demoqrafik mövqeyi yenidən gücləndirilmişdir. Səfəvi-Osmanlı müharibələri zamanı bölgə təkrarən dövlətlərarası qarşıdurmanın episentrinə çevrilmiş, bu da əhalinin məzhəb və siyasi mənsubiyyətə görə miqrasiyasına səbəb olmuşdur.*

*XVIII əsrdən etibarən Rusiya, Osmanlı və Qacar dövlətlərinin toqquşma məkanı olan Borçalı, 1801-ci ildə Rusiya imperiyasına birləşdirilmiş, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə digər Şimali Azərbaycan torpaqları ilə birlikdə Rusiya işğalına məruz qalmışdır. Beləliklə, Borçalı əzəldən bəri türk etnosunun sıx məskunlaşdığı, lakin siyasi rəqabətlərin daim təzyiqində qalmış mühüm bir bölgə kimi tarixdə mühüm yer tutmuşdur.*

*Açar sözlər:* Borçalı, Cənubi Qafqaz, Türk tayfaları, Tiflis əmirliyi, Səfəvilər, Osmanlı-Səfəvi müharibələri, Rusiya işğalı, Türkmənçay müqaviləsi

## *Giriş*

Borçalının siyasi tarixi olduqca mürəkkəb və rəngarəngdir. Borçalı ərazisi tarixin müxtəlif dövrlərində Sasani, Gürcü, Ərəb xilafəti, Böyük Səlcuq imperiyası, Monqol xaqanlığı, Hülakülər dövlətinin və müxtəlif Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Qədim müəlliflərin məlumatlarına görə Borçalı ərazisi antik dövrlərdə iber və mosxların erkən dövlət qurumlarının tərkibinə daxil idi. E.ə. VIII-VII əsrlərdə kimmer, iskit və sak tayfalarının yürüşləri bölgədə siyasi vəziyyəti və güc balansını dəyişdirdi. Bu yürüşlər

bölgədə mövcud olan Kolxida və digər dövlətləri zəiflətməklə Borçalıda türkdilli əhalinin yayılmasını şərtləndirdi. Kimmer, iskit və sak tayfalarının yürüşlərindən sonra Yaxın Şərqdə yaranmış əlverişli siyasi vəziyyət – Kolxida çarlığının zəifləməsi, kartvel dövlətlərinin ciddi rəqibləri olan Urartu və Assuriya kimi dövlətlərin tarix səhnəsindən silinmələri Gürcüstan ərazisində yeni dövlətin yaranması üçün şərait yaratdı. Lakin bununla yanaşı, e.ə. VI əsrin ortalarından yüksələn Əhəməni imperiyası Kolxidanın cənubunu ələ keçirdi. Makedoniyalı İsgəndərin Şərqə yürüşünün nəticəsi olaraq Əhəməni imperiyasının dağılması Cənubi Qafqazda sonradan İberiya (Kartli çarlığının) və Albaniya dövlətlərinin doldurduğu etno-siyasi boşluğun yaranmasına gətirib çıxardı.

*Əsas hissə*

Borçalı torpaqlarının tarixin müəyyən dövrlərində Albaniya və İberiya dövlətlərinin nüfuz dairəsində olmasını müxtəlif antik dövr mənbələri və müasir dövrdə aparılmış tədqiqatlar təsdiq edir. Albaniyanın Kambisena vilayətinin qərb və şimal-qərbə uzanması barədə Ptolomeyin, daha sonra Plininin albanların Alazan və İori çaylarının orta axarlarından Tiflis regionundan müasir Rustavi ərazisinə qədər məskunlaşmaları ilə bağlı verdikləri məlumata əsaslanan F.Məmmədova belə nəticəyə gəlir ki, Kür və Xram çaylarının orta axını Kambisena vilayətinin cənub-şərqini təşkil edirdi [40, s. 30-32].

Borçalı torpaqlarının hələ antik dövrlərdən etibarən rəqabət meydanına çevrilməsi barədə qədim yunan müəllifi Strabon məlumat vermişdir. Strabonun məlumatına görə, erməni çarları Artaksi və Zariadrinin dövründə (e.ə. II əsr) Pariadr, Xorzena və Qoqarenanın dağətəyi yerləri iberlərdən alınmışdı [45, s. 327].

Sasani imperiyasının yaranması ilə əvvəl Albaniya, sonra isə İberiyanın asılı vəziyyətə düşmələri Boçalının Sasani nüfuz dairəsinə daxil olması ilə nəticələndi. VI əsrin 20-ci illərindən Cənubi Qafqazda ağalıq uğrunda Bizans-Sasani müharibələrinin başlaması isə Borçalını yenidən dövlətlərarası rəqabət meydanına çevirdi. 526-cı ildə Bizans və Sasani imperiyaları arasında başlamış müharibə 532-ci ildə başa çatsa da, bu sülh uzun sürmədi. 542-ci ildə Lazika uğrunda başlayan "Böyük müharibə" adlanan hərbi münaqişə 562-ci ilə qədər davam etdi. 572-591-ci illər müharibəsinin nəticəsi olaraq Bizans və Sasani dövlətləri Cənubi Qafqazı öz aralarında bölmək barədə razılığa gəldilər [43, s. 107]. Müharibəyə son qoyan Ktesifon müqaviləsinin şərtlərinə görə, Tiflis və onun ətrafındakı ərazilər Sasanilər dövlətinin nəzarətində qaldı.

Qafqaz uğrunda Sasani-Bizans müharibələrinin davamlı xarakter aldığı VI əsr eyni zamanda Göytürk xaqanlığının tərkibində olan xəzər türklərinin bölgəyə axınları ilə əlamətdar idi. Xəzərlər bu müharibədə Bizansın müttəfiqi kimi çıxış edir, Cənubi və Şimali Qafqazda Sasanilərə qarşı mübarizə aparırdılar.

Xəzərlər Bizans və Sasanilər arasında 603-628-ci illərdə baş vermiş sonuncu böyük müharibədə Bizansın yaxın müttəfiqi kimi yaxından iştirak edərək İberiya və Albaniyanın hərbi siyasi tarixində mühüm rol oynamışlar. Bizans imperatoru II İrakli Qafqaza 623-624-cü illərdə etdiyi yürüşlərdə uğursuzluğa düçar olduğuna görə Bizansın keçmiş müttəfiqlərinə – türklərə (mənbələrdə xəzərlərə) müraciət etdi. Bizansın təklifinə müsbət cavab verən xəzərlər 626-cı ildə Dərbənd keçidi vasitəsilə Albaniyaya daxil olaraq böyük qənimət ələ keçirdilər. 627-ci ildə yenidən Albaniyaya yürüş edən xəzərlər İberiyaya doğru yönələrək Tiflisi mühasirəyə aldılar [36, s. 148-149]. 628-ci ildə Bizans-Sasani müharibəsini başa çatdıran və Gürcüstanın Bizans, Albaniyanın isə Sasani nüfuz dairəsində qalmasını nəzərdə tutan sülh müqaviləsi bağlansa da, xəzərlər Tiflisi ələ keçirdilər. Bizans və türklər arasında bağlanmış müqavilədə isə Gürcüstanın Bizans, Şərqi Qafqazın (Albaniya) isə xaqanın nüfuz dairəsinə keçməsi nəzərdə tutulurdu [36, s. 152]. Bu müqaviləyə dəqiq əməl edən türklər Gürcüstanı təmizləyərək üzlərini Albaniyaya doğru çevirdilər.

Lakin Yaxın və Orta Şərqdə yeni qüdrətli hərbi-siyasi qüvvənin – Ərəb xilafətinin meydana çıxması Qafqazda yaranmış qüvvələr balansını tez bir zamanda pozdu. Xəlifə Ömərin hakimiyyəti dövründə (634-644) çoxşaxəli fəthlərə başlayan ərəblər Sasaniləri və Bizansı ağır məğlubiyyətə uğradaraq Azərbaycan sərhədlərinə daxil olub burada Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzad və onun qardaşı Bəhram üzərində qələbə çaldıqdan sonra Cənubi Qafqaza daxil oldular. Lakin Azərbaycan da daxil olmaqla bütün Cənubi Qafqazın, o cümlədən Borçalının ərəblər tərəfindən tutulması xəlifə Osmanın dövrünə (644-656) təsadüf edir [21, s. 19]. 644-cü ildə Arranı fəth edən ərəb sərkərdəsi Həbib ibn Məsləmənin ordusu Gürcüstana daxil oldu. Həmin dövrdə gürcülər ərəblərə qarşı müqavimət göstərmək iqtidarında olmadığından Gürcüstan patriki sülh təklifi ilə Həbib ibn Məsləmənin yanına elçi göndərdi. Həbib ibn Məsləmə gürcülərin ailə başına bir dinar cizyə verəcəkləri təqdirdə təkliflərini müsbət qarşılayacağını bildirdi. Gürcülər bu təklifi qəbul etdikdən sonra Həbib ibn Məsləmə Gürcüstana bir "Amannamə" göndərdi [20, s. 76]. Beləliklə, Borçalı da daxil olmaq üzrə Tiflis müsəlmanların hakimiyyəti altına keçdi. Lakin həmin dövrdə baş verən hərbi-siyasi hadisələr müsəlmanların Borçalıda öz hakimiyyətlərini tam qurmalarını çətinləşdirirdi.

Bölgədə ərəb fəthlərinin həyata keçirilməsi Borçalıda islam dininin yayılmasına şərait yaratdı. Doğrudur, Əməvilərin hakimiyyətinin ilk illərində Xilafət daxilində baş verən qarışıqlıqlar bu prosesin nisbətən zəif getməsinə səbəb olsa da, Bizans-Sasani müharibələrindən və ağır vergilərdən cana doymuş Borçalı əhalisinin insanlara ədalət, bərabərlik və qarşılıqlı anlaşma vəd edən yeni dini qəbul etmələri üçün möhkəm bir zəmin hazırladı.

Cənubi Qafqaz, o cümlədən Borçalının Xilafət torpaqlarına qəti olaraq qatılması Xəlifə Əbdülmalikin (685-705) hakimiyyəti dövrünə təsadüf edir. Belə ki, Lazika patriki Serginin bizanslılara qarşı üsyan etməsi və ərəblərə sığınmasından istifadə edən Xilafət VII əsrin sonlarında Gürcüstanın qərb torpaqlarını da ələ keçirdi [42, s. 107]. 720-ci ildə Xilafətin şimal əmirliyinə təyin edilən Cərrah ibn Abdullah Tiflis və ətraf ərazilərin əhalisi ilə müqaviləni yenilədi, əhalidən cizyə ilə bərabər xərac da almağa başladı.

Gürcü tarixçiləri Tiflis əmirliyinin VIII əsrin 30-cu illərində qurulduğunu qeyd edirlər. Əmirliyin hüdudlarına əvvəllər indiki Gürcüstan Respublikasının şərq hissəsi daxil olsa da, sonrakı dövrlərdə Borçalı bölgəsi də ona qatıldı. Gürcü tarixçilərinin də qeyd etdiyi kimi, Tiflis əmirliyinin genişlənməsi IX ərin əvvəllərinə qədər Şərqi Gürcüstanın sabitliyə qovuşmasına və inkişafına səbəb olmuşdur [42, s. 154].

Tiflis əmirliyinin şimal sərhədi Diqomi vadisinə, cənub sərhədi Samşviliyə, qərb sərhədi İrəvan dağlarına, şərq sərhədləri Kür çayına qədər uzanırdı. Kür çayının şərqində qalan İsani qalası, Bostanşəhər (Rustavi) kimi böyük şəhərlər də əmirliyin hüdudlarına daxil olmuşdur. X əsrin əvvəllərində Başkeçid (Dmanisi) Taşir knyazlığının əlinə keçsə də, yenidən Tiflis əmirliyinin hüdudlarına qatılmışdır [42, s. 212].

Ərəb tarixçisi Yəqubinin verdiyi məlumata görə Gürcüstanın ilk müstəqil əmiri İsmayıl ibn Şuayb olmuşdur. Xəlifə Əmin İsmayıl ibn Şuaybı itaətə gətirsə də, sonrakı əmir Məhəmməd ibn Əttab 829-cu ildə üsyan qaldıraraq öz müstəqilliyini elan etmişdir [18, s. 215].

Tiflis əmirliyinin mərkəzdən ayrılmasının başlıca səbəblərindən biri kimi xürrəmi üsyanlarını göstərmək olar. Bu üsyanlardan istifadə edən Məhəmməd ibn Əttab Xilafətin Cənubi Qafqaz canişini Abdullah üzərində qələbə qazanaraq Tiflis əmirliyini müstəqil olaraq idarə etməyə başlamışdır.

Xürrəmi üsyanları nəticəsində Xilafətin bölgədə sarsılmış nüfuzunu bərpa etmək üçün Cənubi Qafqaz canişini Xalid ibn Yezid Borçalıya gələrək buradakı xaosa son qoydu və Əli ibn Şuaybı Tiflisə əmir təyin etdi [2, s. 194]. Əli ibn Şuaybdan sonra onun qardaşı oğlu İshaq

ibn İsmayıl Tiflis əmiri olmuşdur. Bu iki əmirin hakimiyyət dövrləri Tiflis əmirliyinin ən parlaq dövrləri kimi qəbul edilir [13, s. 18].

853-cü ildə Xilafət sərkərdəsi Buğa ət-Türkinin yürüşü nəticəsində İshaq ibn İsmayılın öldürülməsindən sonra Tiflis əmirliyində Şeybanilər nəslinin nümayəndəsi Məhəmməd ibn Xalid (853-870) hakimiyyətə keçmişdir [6, s. 84-85]. IX əsrin 80-ci illərində isə Tiflis əmirliyində hakimiyyət Cəfərilər sülaləsinin əlinə keçdi. Beləliklə, Borçalı torpaqlarında Cəfərilər sülaləsinin 200 illik hakimiyyəti dövrü başladı.

IX əsrin sonlarında Azərbaycanda güclü dövlət qurmuş Sacilər Qafqazın hərbi-siyasi tarixində mühüm rol oynamışdır. Sacilərin ilk hökmdarı Məhəmməd ibn Sac 896-cı ildə Smbatı məğlub etdikdən sonra Gürcüstan üzərinə yürüşə başlayaraq Tiflis və ətraf əraziləri öz dövlətinin tərkibinə qatmışdır [15, s. 109-115]. Sacilərin erməni və gürcülərə qarşı mübarizəsinin böyük bir qisminin Qars, Taşir, Tiflis və Kür ətrafında baş verməsi [2, s. 227-246] Sacilərin əsasən Borçalı və onun ətrafındakı torpaqlar uğrunda döyüşdüklərini göstərir. Məhəmməd ibn Sacın ölümündən istifadə edən Smbatın Borçalı və ətrafındakı türklərə zülm etməsi və hakimiyyətini gücləndirən yeni Saci hökmdarı Yusif ibn Sacın ona qarşı təsirli tədbirlər görməsi fikrimizi bir daha sübut edir.

Sacilərdən sonra Azərbaycanda hakimiyyətə gəlmiş Salarilər (941-981) də Azərbaycanın qərb torpaqlarını qorumaq üçün Tiflis müsəlman əmirliyi ilə dostluq və əməkdaşlıq münasibətləri qurmuşdular. Salarilər dövlətinin süqutundan sonra Tiflis müsəlman əmirliyinin ən yaxın müttəfiqi Şəddadilər dövləti olmuşdur.

Şəddadilərin ən güclü hökmdarlarından biri olan Fəzl ibn Məhəmməd (985-1030) İberiya hökmdarı Baqrata qalib gələrək Dağ Borçalını öz torpaqlarına qatmış, 1027-ci ildə isə Şəmkiri mühasirə edən Baqratı yenidən məğlub edərək onun 10 min əsgərini qılıncdan keçirmişdir [15, s. 198]. Qətran Təbrizinin qəsidələrindən də məlum olduğu kimi, Şəddadi hökmdarı II Ləşkərinin (1034-1049) dövründə Tiflis əmirliyi ilə müttəfiqlik münasibətləri qurulmuşdur [15, s. 203]. Şəddadilər və Tiflis müsəlman əmirliyinin ittifaqı, habelə oğuz türklərinin verdiyi dəstək Bizans-gürcü işğalçılarına qarşı uğurlu mübarizəni, həmçinin Azərbaycanın qərb torpaqlarının müdafiəsini təmin edən mühüm amillərdən olmuşdur.

XI əsrin əvvəllərindən başlayan oğuz-səlcuq axınları Yaxın və Orta Şərqdə bütün hərbi-siyasi vəziyyəti dəyişdirdi. Bu səbəbdən Azərbaycan və onun bir parçası olan Borçalıda müsəlman türklər mühüm üstünlük əldə etdilər. 1054-cü ildə Sultan Toğrulun yürüşü nəticəsində Rəvvadilər və Şəddadilərin səlcuqlara tabe olması bölgədə müsəlman türk amilini gücləndirdi. Sultan Toğruldan sonra taxta çıxan Alparslan (1063-1072) Qafqaza diqqətini daha artırdı. 1068-ci ildə gürcü çarı IV Baqrat üzərinə yürüşə başlayan Alp Arslan öz düşərgəsini Borçalıda qurmuşdu [8, s. 16-19]. Bundan sonra Borçalının idarəsi Alp Arslan tərəfindən Şəddadi hökmdarı Fəzluna verildi. Sultan Alp Arslanın Malazgirddə əldə etdiyi tarixi zəfər bölgədə türklərin hakimiyyətini daha da qüvvətləndirdi və IV Baqratın Borçalını ələ keçirmək planlarını alt-üst etdi. Sultan Məlikşahın dövründə (1072-1092) gürcü çarı II Georginin bölgə əhalisinə qarşı təcavüzkar hərəkətləri və Borçalının itirilmə təhlükəsi sultanın 1078-ci ildə Cənubi Qafqaza yürüş etməsinə səbəb oldu [23, s. 113]. Danişməndilər sülaləsindən olan Əmir Əhmədin II Georgini ağır məğlubiyyətə uğratması nəticəsində dövrün mənbələrində də qeyd edildiyi kimi, Qərbi Gürcüstan kimi bir çox yerlərdə türklər məskunlaşdılar. Gürcü qaynaqları özü də Məlikşahın dövründə türklərin Gürcüstanda geniş ərazilərə yayılmalarını təsdiq edir. Heç təsadüfi deyildir ki, XI əsrin 80-ci illərindən bəhs edən gürcü mənbələri bu dövrü "Didi Türkoba" (Böyük Türkeli) adlandırır [8, s. 16-19]. Dövrü tədqiq edən mütəxəssislər də XI əsrin 80-ci illərində Gürcüstanda "Böyük türklük" dövrünün başladığını qeyd edirlər [14, s. 75].

Sultan Məlikşahın ölümündən sonra hakimiyyət uğrunda başlanan mübarizə, həmçinin səlib yürüşləri nəticəsində Səlcuq imperiyasının zəifləməsindən istifadə edən gürcülər yenidən

fəallaşdılar. Bu dövrdə gürcülər Kaxetiya və Lorunu ələ keçirə bilsələr də, Tiflis, Dmanisi və Bostanşəhər kimi iri yaşayış məntəqələri türklərin nəzarətində idi. Gürcü hakimi IV David hələ də səlcuqlara tabe olsa da, səlibçilərin Suriya və Cənub-şərqi Anadoluda səlcuqlar üzərində əldə etdikləri qələbələrdən ruhlanaraq müsəlman olmayan türklərlə, xüsusilə qıpçaqlarla ittifaqa girdi. Qıpçaq hökmdarı Atrakın qızı ilə evlənən IV David 45 min qıpçaq ailəsini Gürcüstanda yerləşdirdi və onları oğuz türklərinə qarşı istifadə etdi [18, s. 319-320].

Qıpçaqlardan təşkil edilmiş ordunun yardımı ilə IV Davidin 1120-ci ildə Borçalıya hücum edərək türkləri qılıncdan keçirməsi əhalinin İraq Səlcuq sultanı Mahmuda müraciət etmələrinə səbəb oldu. Gürcülərin təcavüzkar hərəkətlərinə son qoymaq üçün Arran hakimi məlik Toğrulun göstərişinə əsasən gürcülər üzərinə yürüş edən Mardin hakimi Nəcməddin İlqazi birləşmiş gürcü-qıpçaq qoşunu ilə 1121-ci il avqustun 18-də Didqori adlı yerdə qarşılaşdı. Didqori döyüşü səlcuqluların ağır məğlubiyyəti ilə nəticələndi [25, s. 83-84]. Bu hadisədən bir il sonra Cəfərilər sülaləsinin idarə etdiyi müsəlman əmirliyinin paytaxtı olan Tiflis gürcülərin əlinə keçdi və Gürcüstanın siyasi mərkəzinə çevrildi. Beləliklə, səlcuq ordularının Fələstin torpaqlarını səlibçilərdən qorumağa çalışdıqları belə ağır hərbi-siyasi şəraitdə Kaxetiya və Borçalı torpaqları gürcülərin əlinə keçdi.

XII əsrin 20-ci illərində Səlcuq dövlətində baş verən hakimiyyət uğrunda mübarizə Azərbaycanın qərb torpaqlarının taleyini təhlükə altında qoyurdu. Belə mürəkkəb şəraitdə 1136-cı ildə Azərbaycanın əvvəl Arran bölgəsində hakimiyyətə gəlmiş, 1160-cı ildə isə bütün İraq Səlcuq sultanlığında hakimiyyəti ələ keçirmiş qüdrətli Azərbaycan Atabəyləri dövlətinin banisi Şəmsəddin Eldəniz Azərbaycan torpaqlarının qorunmasında mühüm rol oynadı. Gürcü hökmdarı III Georginin (1156-1184) 1161-ci ildə Borçalı və digər Azərbaycan torpaqları üzərinə etdiyi yürüşü dəf etmək üçün fəaliyyətə başlayan Şəmsəddin Eldəniz 1163-cü ildə gürcüləri ağır məğlubiyyətə uğradaraq Borçalını azad etdi [1, s. 55-58]. III Georgi uğradığı ağır məğlubiyyətlərə baxmayaraq sonrakı illərdə də Azərbaycan torpaqlarına hücumlarını davam etdirirdi. 1174-cü ildə gürcülər üzərinə yürüş edən Eldəniz Borçalıda Ağcaqalanı düşməndən geri aldı. 1175-ci ildə isə növbəti yürüşə başlayan Böyük atabəy III Georgini olduqca ağır məğlubiyyətə uğratdı. Şəmsəddin Eldənizin ölümündən sonra hakimiyyətə gələn oğlanları Məhəmməd Cahan Pəhləvan (1175-1186) və Qızıl Arslanın (1186-1191) dövründə gürcülər özünün qüdrətli çağlarını yaşayan Azərbaycan Atabəyləri dövlətinə yürüş etmək iqtidarında deyildilər. Yalnız Qızıl Arslanın ölümündən sonra Azərbaycanda hakimiyyətə keçən Əbu Bəkrin dövründə (1191-1210) ölkədə baş verən hakimiyyət uğrunda mübarizədən yararlanan gürcülər yenidən Azərbaycan torpaqlarına sistematik şəkildə viranedici yürüşlərə başladılar. Beləliklə, XIII əsrin əvvəllərindən etibarən Borçalı və digər ətraf Azərbaycan torpaqları yenidən gürcü hücumlarına məruz qaldı.

1225-ci ildə Azərbaycanı ələ keçirərək Eldənizlərin hakimiyyətinə son qoymuş Xarəzmşah Cəlaləddinin gürcüləri iki dəfə ağır məğlubiyyətə uğratması Borçalının gürcü təcavüzündən xilas edilməsi istiqamətində mühüm addım oldu. Xarəzmşah Cəlaləddinin ardınca baş verən monqolların ikinci yürüşü Borçalı torpaqlarından da yan keçmədi. XIII əsrin 30-50-ci illərdə Cənubi Qafqaz Ali Monqol xaqanlığının, XIII əsrin 50-ci illərinin sonlarından etibarən isə Hülakülər (Elxanilər) dövlətinin tərkibinə daxil edildi. Monqol ağalığı dövrünün Borçalı üçün ən əhəmiyyətli hadisəsi bölgədə yeni-yeni türk tayfalarının məskunlaşması, yeni yaşayış məntəqələrinin salınması və türk əhalisinin sayının daha da artması olmuşdur.

Əmir Teymurun Cənubi Qafqaza etdiyi yürüşlər Borçalı torpaqlarından da yan keçməmişdir. 1386-cı ildə Borçalının Yağlıca düzünə gələn Əmir Teymur buradakı qıpçaq obalarını özünə tabe etmişdir.

XV əsrin 20-ci illərindən etibarən Borçalı torpaqları Baharlılar (Qaraqoyunlular) dövlətinin idarəsinə keçdi. Qaraqoyunlu hökmdarı Cahanşah 1440-cı ildə Borçalıya gələrək Qaramanlı və Hacılı türk obalarını burada yerləşdirdi.

1468-ci ildə Azərbaycanda hakimiyyətə gələn Ağqoyunlu Həsən padşahın gürcülər üzərinə təşkil etdiyi uğurlu yürüşlər və Borçalıda çoxsaylı türk tayfalarını yerləşdirməsi nəticəsində bölgədə türklərin nüfuzu daha da möhkəmləndi. Sonrakı Ağqoyundu hökmdarı Yaqub padşahın (1478-1490) 1482 və 1486-cı illərdə Gürcüstan üzərinə etdiyi yürüşlər və həmsərhəd bölgələrdə çoxsaylı türk tayfalarını yerləşdirməsi Borçalının gürcü hücumlarından qorunmasında mühüm rol oynadı. Borçalı tarixinin görkəmli tədqiqatçısı K.Məmmədlinin fikrincə, Borçalı tərəkəmələrinin bir çoxu birbaşa Qaraqoyunlu və Ağqoyunlu türkmanları ilə bağlıdır [30, s. 54-56].

I Şah İsmayılın 1501-ci ildə qüdrətli Azərbaycan Səfəvilər dövlətini yaratması Cənubi Qafqazın hərbi-siyasi həyatında yeni dəyişikliklərlə müşayiət olundu. Yaxın və Orta Şərqdə, habelə Cənubi Qafqazda hegemonluq uğrunda Səfəvilər dövləti və Osmanlı imperiyası arasında başlanan rəqabət Borçalı torpaqlarını da döyüş meydanına çevirdi. Qeyd etmək lazımdır ki, Borçalı çox zaman Qarabağ bəylərbəyliyinin bir hissəsi kimi Səfəvilər dövlətinin tərkibində olmuşdur.

Borçalı türklərinin Şah İsmayılı dəstəkləmələrini onların 1503-cü ildə şahın çağırışı ilə 9 min atlıdan ibarət qoşunla Ağqoyunlu Murad Mirzəyə qarşı çıxmaları faktı da göstərir [9, s. 55]. Şah İsmayılın Çaldıran döyüşündə məğlub olmasından istifadə edən Kartli hakimi Davidin Kaxetiyaya yürüşünün qarşısının borçalıların dəstəyi ilə alınması bu mülahizəni bir daha sübut edir.

Səfəvilərin Borçalıya xüsusi diqqət yetirmələri həm də gürcü hakimlərinin Osmanlı dövləti ilə əlaqələrini əngəlləmək istəklərindən irəli gəlirdi. Şah I İsmayıldan sonra hakimiyyətə gəlmiş Şah I Təhmasib Osmanlılara arxalanan İmeretiya hakimi III Baqratın Borçalı və ətraf əraziləri qarət etməsi ilə əlaqədar bölgə əhalisinin xahişi ilə 1541-ci ildə Borçalıya gəldi [3, s. 117]. Beləliklə, Tiflis və ətrafı Şah I İsmayıldan sonra ikinci dəfə Səfəvilərin əlinə keçdi. I Şah Təhmasibin dövründə baş vermiş Osmanlı-Səfəvi müharibələrinin sonrakı gedişində gürcü hakimləri dəfələrlə Osmanlıların köməyi ilə bölgədəki Səfəvi hakimiyyətini aradan qaldırmağa cəhd göstərsələr də buna nail ola bilmədilər.

Səfəvilər dövlətinin Şah Məhəmməd Xudabəndənin (1578-1587) hakimiyyəti dövründə zəifləməsindən istifadə edən Osmanlı dövləti 1578-ci ildə Amasya sülhünün şərtlərini pozaraq yeni müharibəyə başladı. Müharibənin ilk ilində Tiflis də daxil olmaqla Şərqi Gürcüstan osmanlıların əlinə keçdi. 1585-ci ildə Sufiyan döyüşündə qalib gələn osmanlılar 1586-1590-cı illərdə Borçalı da daxil olmaqla Azərbaycanın əksər torpaqlarını ələ keçirdilər [28, s. 350-355]. 1590-cı il İstanbul sülhünə görə Borçalı torpaqları Osmanlı dövlətinin tərkibində qaldı.

Səfəvi-Osmanlı müharibələri Borçalının iqtisadi-mədəni həyatına, o cümlədən demoqrafik vəziyyətə olduqca ağır təsir göstərmişdir. İki türk dövlətinin ideoloji fikir və məzhəb ayrılığı əhalinin müəyyən qisminin bölgəni tərk etməsinə – sünni əhalinin Osmanlıya, şiələrin isə Cənubi Azərbaycana köç etməsinə səbəb olmuşdur [28, s. 375-356].

I Şah Abbasın (1587-1629) həyata keçirdiyi islahatlar nəticəsində güclənən Səfəvilər 1603-cü ildə Borçalı da daxil olmaqla itirilmiş Azərbaycan torpaqlarının geri qaytarılması uğrunda Osmanlı dövləti ilə müharibəyə başladılar. Şah I Abbas müharibənin gedişində – 1606-cı ildə Borçalının mərkəzi hesab edilən Loru qalasını azad etdi. Borçalının yenidən Səfəvi idarəsinə keçməsi bölgə əhalisini yeni sınaqlarla üz-üzə qoydu. Osmanlılara meyil etdiklərinə görə bölgə əhalisinin bir qismi Azərbaycanın daxili bölgələrinə sürgün edildi. Eyni zamanda Osmanlı dövlətinə köçmək istəyənlərə də müvafiq icazə verildi. Bununla yanaşı,

getmək istəməyən minlərcə sünni əhali Osmanlı tərəfdarı olmaqda ittiham olunaraq Qarabağ, Şirvan və Şiraz bölgələrinə sürgün edildi.

## *Nəticə*

Borçalı bölgəsinin etno-siyasi tarixinə qısa baxış onu göstərir ki, bu ərazi hələ antik dövrlərdən etibarən müxtəlif türk tayfaları ilə məskunlaşdırılmış, Cənubi Qafqazda türklərin yaşadığı ən qədim yurd yerlərindən biri olmuşdur.

Borçalı etnonimi haqqında mənbələrdə əksini tapmış məlumatlar bu bölgədə hələ qədim dövrlərdən etibarən türk əhalisinin məskunlaşmasını təsdiq edir. Borçalı bölgəsinin adı da birbaşa türk tayfasının adını əks etdirən etnonimlə və ya qədim türklərə məxsus etno-simvolla – "bozqurd" (börü) ilə bağlıdır. Erkən orta əsrlərdən başlayaraq bütün mənbələrdə Borçalı toponimi bəzən kalka edilsə də, "qurdların (börülərin) yaşadığı yer" anlamında işlədilir. Tarixi qədim dövrlərə gedib çıxan "Borçalı" toponimi coğrafi adlandırma ilə yanaşı, milli çalar da daşımışdır ki, bu da bölgə əhalisinin etnik mənsubiyyətini göstərir. Müxtəlif dillərdə olan mənbələrdə rast gəlinən "börü çalası", "qurd adamların yeri", "qurd çalası" terminləri bölgədə məskən salmış qədim türk tayfasının adının kalka edilmiş variantıdır.

Tarixi faktlar sübut edir ki, bölgə müxtəlif tarixi mərhələlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin tərkibinə daxil olmuş və bütün dövrlərdə öz hərbi-strateji əhəmiyyətinə, habelə ticarət yollarının buradan keçməsinə görə mühüm əhəmiyyət daşımışdır. Bu səbəbdən Borçalı bölgəsi demək olar ki, daim dövlətlərarası rəqabət meydanına çevrilmiş, dəfələrlə əldən-ələ keçmişdir. Mürəkkəb hərbi-siyasi hadisələrin baş verdiyi əsas ərazilərdən birinə çevrilməsi Borçalı əhalisinin tarixi taleyinə, bölgənin demoqrafik vəziyyətinə də özünəməxsus təsir göstərmişdir.

Nadir şah imperiyasının süqutundan sonra Borçalı bölgəsində yaranmış Borçalı sultanlığını ələ keçirmək Gəncə və İrəvan xanlıqlarının və Kaxetiya çarlığının maraq dairəsində idi. 1801-ci ildə Şərqi Gürcüstanla birlikdə Borçalı, eyni zamanda Qazax və Şəmşəddil sultanlıqlarının ərazisi Rusiyaya birləşdirildi. Rusiya ilə Qacarlar arasında imzalanan 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə digər Şimali Azərbaycan torpaqları kimi Borçalı mahalı da Rusiyaya ilhaq edildi.

## ƏDƏBİYYAT


1. Артамонов М.И. История Хазар. Ленинград: Издательство Государственного Эрмитажа, 1962, 523 с.
2. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı: "Şərq-Qərb", 2007, 312 s.
3. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: "Şərq-Qərb", 2007, 424 s.
4. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: "Şərq-Qərb", 2007, 344 s.
5. İbn əl-Əsir. Əl-Kamil Fi-t-Tarix. Tərc.: M. Əfəndizadə. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1959, 216 s.
6. Gürcistan tarihi. Notlar: M. F. Brosset. Ankara: Türk Tarih Kurumu Basımevi, 2003, 472 s.
7. İpek A. İlk Dönem İslâmî İlimlerde Önemli Bir Merkez Tiflis // Kafkas Üniversitesi İlahiyat Fakültesi Dergisi, Yıl: 2017, Cilt: IV, Sayı: 8, s. 73-93.
8. İpek A. İlk İslami Dönemde Gürcistan. Erzurum: Zafer Medya Yayınları, 2016, 160 s.
9. Kafesoğlu İ. Sultan Melikşah Devrinde Büyük Selçuklu İmparatorluğu. İstanbul: Ötüken Yayınları, 1953, 239 s.
10. Kırzıoğlu F. Osmanlı'nın Kafkas Elleri'ni Fethi (1451-1590). Ankara: Türk Tarih Kurumu Basımevi, 1993, 550 s.

11. Məmmədli K. Borçalı Səlcuqlular imperatorluğu dönəmində // Qarapapaqlar jurnalı, Tbilisi, 2009. № 9, s.16-19.
12. Məmmədli K. Borçalı uğrunda osmanlı-qızılbaş savaşları // Şah İsmayıl Xətai: VIII Elmi-praktiki konfransının materialları. Bakı: 2007, s. 55-63.
13. Мамедова Ф. О некоторых вопросах исторической географии Албании I в. до н.э. VIII в. // Историческая география Азербайджана. Баку: Элм, 1987, с.7-45.
14. Мровели Л. Жизнь картлийских царей. Москва: Наука, 1979, 103 с.
15. Очерки истории Грузии. Том 2. Грузия в IV-X веках. Ред.: М.Лордкипанидзе, Д.Мусхелишвили]. Тбилиси: «Мецниереба», 1988, 580 с.
16. Страбон. География в 17 книгах. Перевод: Г.А.Стратановского. Москва: Наука, 1964, 944 с.
17. Şərifli M. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: AMEA-nın Tarix İnstitutu, 2013, 398 s.
18. Пигулевская Н.В. Византия и Иран на рубеже VI-VII вв. / Отв. редактор акад. В.В.Струве. Труды института востоковедения. М.-Л.: Издательство Академии Наук СССР. Академии наук СССР, 1946. Т. XLVI, 292 с.

УДК 94

*Гюлер Ильхам кызы Аждерзаде*
*Мингечевирский Государственный Университет,*
*Национальная Академия Наук Азербайджана*
*Институт Истории и Этнологии имени А.А.Бакиханова*

## ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ БОРЧАЛЫ (С VIII–VII ВЕКОВ ДО Н.Э. ПО XVII–XVIII ВЕКА Н.Э.)

*РЕЗЮМЕ*

*Ключевые слова:* Борчалы, Южный Кавказ, тюркские племена, политическая история, Тифлисский эмират, Сефевиды, османо-сефевидские войны, аннексия Россией, Туркманчайский договор

Регион Борчалы, расположенный в Южном Кавказе, на протяжении всей истории служил важным этнополитическим центром и ареной межгосударственных соперничеств. Согласно древним источникам, изначально территория находилась под влиянием иберийцев и мошков; однако уже в VIII–VII веках до н.э., после вторжений киммерийцев, скифов и сакав, она стала местом расселения тюркоязычных народов.

В эпоху Ахеменидов, во время походов Александра Македонского и византийско-сасанидских конфликтов Борчалы оставался стратегически важной территорией, неоднократно переходившей из рук в руки.

С VII века регион оказался под влиянием Арабского халифата, что способствовало распространению ислама. К концу VIII века Борчалы вошёл в состав Тифлисского эмирата и попал под власть мусульманских династий, таких как джафариды, сайиды и шеддадиды, что укрепило тюркско-исламское присутствие.

В период Сельджуков значение региона возросло, однако в начале XII века он пострадал от грузинских нашествий. Впоследствии государства Кара-Коюнлу, Ак-Коюнлу и Сефевиды вновь усилили тюркское политическое и демографическое присутствие в этом районе. Стратегическое положение региона сделало его ареной

сражений в ходе османо-сефевидских войн, вызвавших серьёзные демографические изменения, обусловленные религиозной принадлежностью населения.

В XVIII веке, на фоне борьбы России, Османской империи и государства Каджаров за влияние в регионе, Борчалы снова превратился в геополитическую горячую точку. В 1801 году он был аннексирован Российской империей, а по Гюлистанскому (1813) и Туркманчайскому (1828) договорам официально вошёл в её состав. Таким образом, Борчалы занимает значительное место в историческом нарративе как один из древнейших тюрконаселённых регионов Южного Кавказа, неоднократно становившийся объектом соперничества региональных держав.

UDC 94

*Guler Ilham Ajderzade*
*Mingachevir State University,*
*Azerbaijan National Academy of Sciences*
*Institute of History and Ethnology named after A.A. Bakikhanov*

THE POLITICAL HISTORY OF BORCHALI (FROM THE VIII–VII CENTURIES BC TO THE XVII–XVIII CENTURIES AD)

*SUMMARY*

*Key words:* Borchali, South Caucasus, Turkic tribes, Political history, Tiflis Emirate, Safavids, Ottoman–Safavid wars, Russian annexation, Treaty of Turkmenchay

The Borchali region, located in the South Caucasus, has historically served as a significant ethno-political center and a focal point of interstate rivalries. According to ancient sources, the region was initially under the influence of the Iberians and Moschi; however, by the VIII–VII centuries BCE, following the incursions of the Cimmerians, Scythians, and Saka, it became a settlement area for Turkic-speaking populations. During the Achaemenid era, Alexander the Great’s campaigns, and the Byzantine–Sasanian conflicts, Borchali remained a strategically important territory frequently shifting political control.

From the VII century onward, the area came under the influence of the Arab Caliphate, facilitating the spread of Islam. By the late VIII century, Borchali became part of the Tiflis Emirate and came under the rule of Muslim dynasties such as the Jafarids, Sajids, and Shaddadids, thereby strengthening the Turkic-Islamic presence. During the Seljuk period, the region gained further strategic importance, although it suffered from Georgian incursions in the early XII century.

Subsequently, the Garagoyunlu, Agghoyunlu, and Safavid states reasserted Turkish political and demographic presence in the area. The region's strategic position rendered it a battlefield during the Safavid–Ottoman wars, which caused significant demographic shifts based on religious affiliations.

In XVIII century, as Russia, the Ottoman Empire, and the Qajar state contended for regional influence, Borchali again became a geopolitical hotspot. In 1801, it was annexed by the Russian Empire, and following the treaties of Gulistan (1813) and Turkmenchay (1828), it was officially incorporated into Russia. Thus, Borchali holds a significant place in the historical narrative as one of the oldest Turkic-inhabited regions of the South Caucasus, recurrently contested by regional powers.

**Daxil oldu: 12.06.2025-ci il**